# Azərbaycan iri layihələrin icrasında Yaponiya ilə əməkdaşlıq edir

Dünən Azərbaycanda səfərdə olan Yaponiya-Azərbaycan parlamentlərarası dostluq liqasının üzvləri Azərbaycan-Yaponiya parlamentlərarası işçi qrupu ilə görüşüblər.

İşçi qrupun rəhbəri Abel Məhərrəmov Azərbaycan-Yaponiya əlaqələrinin qədim tarixə malik olduğunu qeyd edib. Bildirib ki, hər iki ölkə tarixi İpək Yolunun üstündə yerləşir. Onun sözlərinə görə, Yaponiya Azərbaycanın müstəqilliyini tanıyan ilk ölkələrdən olub və bunu bütün dünyaya bəyan edib. Ölkələrimiz arasında 1992-ci ildən başlayaraq diplomatik əlaqələr yaranıb. Bu günə qədər ikitərəfli əlaqələr bütün sahələrdə böyük inkişaf yolu keçib.

A.Məhərrəmov qeyd edib ki, Azərbaycanın həyata keçirdiyi ən böyük layihələrdə Yaponiya şirkətləri yaxından iştirak ediblər. Hətta 45 milyard dollarlıq TAP və TANAP kimi iri enerji layihələrində də yapon şirkətləri aktiv iştirak edirlər. Humanitar sahədə də əlaqələr yüksək səviyyədədir. Son 15 ildə Azərbaycana kömək məqsədilə 199 layihə Yaponiya tərəfindən hazırlanıb. Bunlardan 76-sı məktəb tikintisi və təhsil avadanlığı sahəsini əhatə edib. 60-ı səhiyyə, 9-u isə kənd təsərrüfatı sahəsinə, xüsusən də suvarma işlərinə şamil edilib. Eyni zamanda, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ problemi ilə əlaqədar minalardan təmizlənmə üzrə 4 layihə təqdim olunub.

Görüşdə o da deyilib ki, 2000-ci ildən etibarən Bakı Dövlət Universitetində yapon dili üzrə mütəxəssis hazırlığına başlanılıb. İndiyədək 112 məzun olub ki, onlar hazırda iki dövlət arasında əlaqələrin inkişafında böyük rol oynayırlar.

Yaponiya-Azərbaycan parlamentlərarası dostluq liqasının rəhbəri, Yaponiyanın iqtisadi dirçəliş, sosial müdafiə və vergilərin ümumi islahatı üzrə naziri Akira Amari Milli Məclisin müasir binası barədə fikirlərini bölüşüb. Bildirib ki, Yaponiya parlamentində bu qədər rahatlıq təmin olunmayıb.

Sonra parlamentlərarası əlaqələr, kiçik sahibkarlıq təsərrüfatlarının inkişaf etdirilməsi, eləcə də Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə fikir mübadiləsi aparılıb.

***"Azərbaycan"***